# “YAŞATDIM Kİ, YAŞAYIM” VƏ “QƏLƏMİN İŞIĞINDA” ADLI İKİCİLDLİYİN TƏQDİMATI

***Bu günlərdə “Azərbaycan” nəşriyyatının akt zalında jurnalist, kitabxanaçı-biblioqraf Ədilə Qocayevanın yenicə çap olunan “Yaşatdım ki, yaşayım” və “Qələmin işığında” ikicildliyinin təqdimat mərasimi keçirilmişdir. Tədbiri giriş sözü ilə açan aparıcı, Azərbaycan Milli Kitabxanasının şöbə müdiri Mehriban Cəfərova qonaqları salamladıqdan sonra Ədilə Qocayevanın həyat və yaradıcılığı haqqında qısa məlumat verərək onun 2015-ci ildə “Ömrün yaradıcılıq anları” adlı biblioqrafiyasının oxucuların ixtiyarına verildiyini vurğuladı.***



M.Cəfərova sonra sözü kimyaçı alim, ADPU-nun professoru Telman Ağdamski-Bədəlbəyliyə verdi. T.Ağdamski Adilə Qocayevanın atası Sayəddin Qocayevin ailəsi ilə atası, Azərbaycanda Leyli rolunun ilk ifaçılarından biri Əhməd Ağdamski-Bədəlbəyli vasitəsilə uzun illər bundan öncə Ağdaşda ailəvi dost olduqlarını, bu ailənin bütün üzvlərinin, o cümlədən Ə.Qocayevanın həyat və yaradıcılığının yaxından şahidi olduğunu vurğuladı. T.Ağdamski-Bədəlbəyli sonda atası Ə.Ağdamski-Bədəlbəylinin Ağdaş Musiqi məktəbində S.Qocayevə tardan dərs verərəkən bütün siniflə birlikdə çəkdirdikləri çərçivəyə salınmış şəklini və gül dəstəsini Ədilə xanıma hədiyyə etdi.

Dünyaşöhrətli rəqqasə, Xalq artisti, “Şöhrət” ordenli, 93 yaşlı Roza Cəlilova söz alaraq Ədilə xanımı sadə, səmimi, zəhmətkeş, fədakar qadın, bacarıqlı jurnalist kimi xarakterizə edərək onu ikicildliyinin işıq üzü görməsi münasibətilə təbrik etdi və ən xoş arzularını bildirdi.

Sonra çıxış edən Xalq artisti, Akademik Milli Dram Teatrının aktyoru Hacı İsmayılov Ədilə Qocayevanın Azərbaycan teatrı, onun yaradıcı aktyorları ilə sıx təmasda olduğunu, onların qazandıqları uğurları daim diqqətdə saxlayaraq imzasını qoyduğu 37 adda mətbu orqanda vaxtlı-vaxtında oxucuya çatdırdığını xüsusilə vurğuladı. Onu Teatr Xadimləri İttifaqının sədri, Akademik Milli Dram Teatrının direktoru Azər Paşa Nemətovun və Bakı teatrlarının aktyor truppaları adından səmimiyyətlə təbrik etdi, yeni-yeni yaradıcılıq uğurları dilədi.



Yazıçı-publisist İntiqam Mehdizadə, Əməkdar jurnalistlər, “Yeni Təfəkkür” qəzetinin baş redaktoru Şəmsiyyə Kərimova, “İki sahil” qəzetinin müxbiri Xuraman İsmayılqızı, Milli Kitabxananın şöbə müdiri Mədinə Vəliyeva, Ədilə xanımın qardaşı Mircəlal Qocayev və başqaları müəllifin ilk növbədə əsl insan, ziyalı və zəhmətkeş qadın, qayğıkeş bacı, sadiq dost olduğunu nəzərə çatdıraraq ikicildliyinin işıq üzü görməsi münasibətilə təbrik etdilər daha böyük nailiyyətlər dilədilər.



Tədbirdə iştirak edən “İki sahil” qəzetinin və “İki sahil Tv”-nin əməkdaşları qəzetin Baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadənin və onun müavini İsmayıl Hacıyevin təbriklərini Ədilə xanıma çatdırdılar.

Sonda çıxış edən Ədilə Qocayeva bu ikicildliyi hazırlayarkən 37 adda mətbu orqanda dərc edilən 3000-ə yaxın məqaləsinin arasından seçmə yazılarını üzə çıxararaq çap etdirdiyini nəzərə çatdırdı. Əsas məqsədinin müasirləri olduğu və özündən əvvəl adları tarixə yazılan mədəniyyət və incəsənət xadimlərini, qabaqcıl elm, təhsil, səhiyyə işçilərini, sonuncu dəfə 1988-ci ildən başlayaraq bu günə kimi Qarabağda mənfur ermənilərin törətdikləri misli görünməmiş faciələri, torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşərək şəhid və qazi olan oğullarımızı gələcək nəsillərə yaxından tanıtmaq olduğunu bildirdi.

Sonda müəllifə gül-çiçək dəstələri təqdim olundu və xatirə şəkilləri çəkildi.

**Nəzakət Kərimova**